ədalət.2017.11 aprel.S.4.

# Leyla Əliyevanın "POEZİYA"SI

## Kitab haqqında düşüncələrim

**Bugünlərdə qəzetimizin təsisçisi, millət vəkili Aqil Abbas mənə bir kitab verdi. Təbii ki, Aqil müəllimin kitab təqdim etməsinin həmişə konkret bir məqamı, mənası olur. Əgər o kitabı təqdim edərkən "tanış ol" deyirsə, bunun mənası təkcə mənə məlumdu. Yox əgər "oxu" deyirsə, deməli, artıq bu kitabla həqiqətən ciddi maraqlanmaq lazımdı. Bax, elə indi barəsində yazmaq istədiyim kitabı da millət vəkilimiz mənə təqdim edərkən xüsusi bir şəkildə vurğuladı ki, götür bu kitabı oxu, maraqlı kitabdı. Elə həmin günün sonunda kitabı özümlə evə apardım. Açığını deyim ki, kitabın üz qabığı, tərtibatı məndə müəyyən qədər maraq hissi yaratmışdı. Çünki üz qabığındakı ürək şəkli elə işlənmişdi ki, ona hər mənada münasibət bildirmək, hər mənada ondan nə isə götürmək mümkün idi. Bu ürək canlı bir orqanizmi xatırladırdı adama. Sanki indicə danışacaqdı...**

Evdə kitabı oxumağa başladım. Kitabın adı "Poeziya" idi. düzünü deyim ki, poeziya sözünü oxuyanda düşünmüşdü ki, bu bir almanaxdı. Yəqin ayrı-ayrı müəlliflərin ürəklə bağlı şeirləri toplanıbdı bu almanaxda. Ancaq kitabı oxuculara təqdim edən, yəni onu Azərbaycan dilinə çevirən Mahir Qabiloğlunun kitabdakı anatasiyasından bildim ki, sən demə, redaktoru Əkbər Qoşalı olan bu kitabın müəllifi Leyla Əliyevadır. Sadəcə tərcüməçi və redaktor "Adiloğlu" nəşriyyatında 200 səhifəlik bu kitabın dünyaya gəlişinə xeyir-dua veriblər. Yəni onların birgə əməyi nəticəsində "Poeziya" söz dünyamıza, oxucu arenamıza təşrif buyurub. Kitabın ilk şeirinin adı "Gedim bir az ağlayım"dı. Açığını deyim ki, bu addakı səmimiyyətlə yanaşı, bir yorğunluqdan, ağrıdan, ümidsizlikdən qurtulmağın, yüngülləşməyin çalarlarını dərhal özümə köçürdüm. Çünki Leyla xanım Əliyeva yazır ki:

**Gedim bir az ağlayım,**
**elə-belə astaca.**
**Ürəyimi gizlədim**
**yastığımın altında.**

**Pəncərəni açaraq**
**kövrəlmiş ürəyimi**
**bəlkə həyətə atım?!**
**Həyatın ağuşuna...**
**Yox, yaxşısı budur ki,**
**gedim bir az ağlayım**
**elə-belə astaca.**

Sizə təqdim etdiyim "Gedim bir az ağlayım" şeirinin 1-ci hissəsindəki mənzərəni, ovqatı yəqin ki, tuta bildiniz, yaşaya bildiniz. Məncə, bu səmimiyyət ürəyə yatandı, inandırıcıdı və həm də düşündürücüdü. Ona görə ki, insan məhz özüylə, düşüncələriylə baş-başa qalanda o sıxıntıdan qurtulmaq üçün elə birküncdə də oturub ağlamaq istəyir heç bir bəhanəsiz. Elə bu şeirdə olduğu kimi.

Şeirin ardını oxuduqca isə artıq niyə ağlamaq istədiyini, niyə bu qədər qəribəliklər yaşadığını oxucu misraların təkcə düzümündən deyil, həm də fikir yükündən anlamağa başlayır. Aydın olur ki, bu ağlamağın əsas səbəbi ürəyin özüdü, öz halıdı, öz istəyidi. Özünün özünə təsəlli vermək niyyətidi, məqsədidi. Ona görə də şairə yazır ki:

**Gecənin sükutunda**
**Ürəyimlə tənhayam.**
**Yağış yağır islanır**
**Çətir tutmuram ona.**

**Qoy incisin...**
**Nə qədər o**
**Oyun açıb başıma...**

Kitabdakı şeirləri bir-bir oxuyuram və tam səmimi şəkildə etiraf edim ki, şeirlərin mövzusu hər gün vərəqlədiyim çoxlu sayda kitabların mövzularından fərqlənir. Burada daha çox yaşananlar, müşahidə olunanlar misralanıb şeirə çevrilibdi. Ən maraqlı bir məqam da odur ki, müəllif düşündüklərini heç bir boyasız, heç bir bədii sözün rəngləriylə cilalamadan sadə və oxucunun inana biləcəyi bir şəkildə qələmə alıbdı. Yəni şeiri oxuduqca adama elə gəlir ki, bütün bunlar onun ətrafında baş verənlərdi, onün gördükləridi. Məsələn, "Qu quşu" şeirinə diqqət yetirək.

**Açıldı tək atəş,**
**Atıldı güllə,**
**Nazənin qu quşu**
**Çəkildi göyə...**



**Bir anda arzular**
**Göldə boğuldu.**
**Möcüzəyə inam**
**Ordaca öldü...**

**Ovçununsa üzünə**
**Bir saxta gülüş qondu...**
**Ürəyi od tanıdı,**
**Vicdanı əzab çəkdi...**
**Qondarma gülüş isə**
**Pərdələdi, gizlətdi**
**Başqa bir həyata**
**Nöqtə qoymaqla,**
**Guya həyatına**
**Həzz gətirmişdi...**

Bu şeirin də sizə təqdim etdiyim hissəsində öncə söylədiyim fikirlərin rahatca şahidi olmaq mümkündü. Çünki ovçunun saxta gülüşü bu bir gerçəklikdi. Ona görə ki, ömrü bir andı. Ovdan sonra qanına qəltan etdiyin ovun həyatı mütləq vicdanında bir sızıltı yaradır. Axı, sən hansısa bir canlanın yaşama haqqını əlindən almısan. Müəllif Leyla Əliyeva da "Qu quşu" şeirində həmin fikirləri özünəməxsus bir şəkildə oxucuya çatdırır. Və sonda vurğulayır ki,

**İnsanlar da qadirdir**
**bu həyatda çox şeyə.**
**Amma ki, güc tapmırlar,**
**Adi qu quşu kimi,**
**Sonalar sonasıtək,**
**Əbədiyyən sevməyə...**

Barəsində fikirlərimi ifadə etməyə çalışdığım kitabdakı şeirlərdən biri də "Heç vaxt yalqız deyilsən" adlanır. Digər şeirlərində olduğu kimi müəllif bu şeirində də həyat cizgilərini qələmə alır və yazır ki:

**Gecələr Günəş səndən**
**üz çevirib gedəndə,**
**ay da sənə naz satıb,**
**buludlarla üzünü**
**bağlayıb gizlədəndə...**
**köksündəcə qəlbinə**
**yol tapmağa çalışan**
**bir kədər duyacaqsan...**
**yalqız olmadığına**
**onda inanacaqsan...**

Bəli, istənilən halda normal düşüncəyə, mühakiməyə malik olan hər kəs bilir ki, insan daha çox gecələr özünə çəkilir, gecələr özüylə baş-başa qalır. Ağrı-acı da, kədər də gecələr daha güclü olur. Sonda güclü tərəf özünü hiss etdirir, özünün varlığını ürəyi sancmaqla, ağılı məşğul etməklə nümayişkaranə bir şəkildə ortaya çıxarır. Bax, elə bu şeirdə olduğu kimi artıq onda hiss edirsən ki, sən yalqız deyilsən. Sən tək deyilsən. Bu təkliyin ikinci tərəfi kədərdi, dərddi. Sənin özünün düşüncə, duyğu ortağındı. Ona görə də o təklikdən qurtulmağın, o təkliyə qalib gəlməyin yolu istər-istəməz adamı axtarışa, yaşamağa səsləyir. Elə həmin məqamda da ilk yada düşən Tanrı olur. şeirin müəllifi də oxucusuna məhz bunu xatırladır, bunu deyir və deyir ki:

**Tutaq ki, tək-tənhasan,**
**bu kiçik planetdə -**
**Döngələr arasında,**
**Yolların tıxacında...**

**Lap bu fani dünyada**
**Tək olsan da, lap tənha...**
**Heç nədən hürküb qorxma..!**
**Çünki başının üstə,**
**Tanrı vardır, unutma!..**

**"Poeziya" kitabı barəsində qələmə aldığım bu kiçik, amma içimdən gələn düşüncələrimi sizinlə bölüşərkən bir daha vurğalamaq istəyirəm ki, Leyla İlham qızı Əliyevanın kitabında toplanmış şeirləri ustalıqla tərcümə edən Mahir Qabiloğlu müəllifin poetik dünyasını oxucuya sevdirə bilibdi. Bunu mən öz oxucu fikirlərimlə təsdiq edə bilərəm.**

**Əbülfət MƏDƏTOĞLU**